BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2013

UOT: 327; 930.22

# AVROPA ÜMUMİ XARİCİ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN FORMALAŞMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

**T.X.VƏLİYEVA**
***AMEA İnsan Hüquqları İnstitutu***
***veliyeva-tomris@yahoo.com***

*Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətinin (ÜXTS) formalaşması və inkişaf mərhələləri tədqiq edilir. Göstərilir ki, ÜXTS-in formalaşması formal olaraq Avropa Birliklərinin təsis olunması ilə başlayır. Maastrixt Müqaviləsinin bağlanması ÜXTS-in inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoydu ki, bu da özünün sonrakı inkişafına Amsterdam və Nits müqavilələrində nail oldu. Lissabon Müqaviləsinin qüvvəyə minməsi isə ÜXTS-in növbəti mərhələsinin başlanmasını bildirmiş oldu.*

**Açar sözlər:** Avropa İttifaqı, ümumi xarici və təhlükəsizlik siyasəti, Maastrixt Müqaviləsi, Amsterdam Müqaviləsi, Nits Müqaviləsi, Lissabon Müqaviləsi, Vahid Avropa Aktı, vahid daxili bazar, inteqrasiya

Avropa İttifaqı özündə 500 milyona yaxın əhalisi olan 27 dövləti cəmləşdirən ən böyük inteqrasiya birliyidir. Son 60 ildə iqtisadi inteqrasiya sahəsində böyük nailiyyətlər əldə etmiş bu Birlik dünya iqtisadiyyatının kifayət qədər əhəmiyyətli hissəsini özündə təmərküzləşdirib və dünyanın ümumdaxili məhsulunun təqribən dörddə bir hissəsi (və ya 25%-i) onun payına düşür.

Avropa İttifaqının müasir dövrdə beynəlxalq rolu tək iqtisadi ölçülərlə kifayətlənmir, bu qurum eyni zamanda beynəlxalq siyasi münasibətlərin aparıcı aktorlarından birinə çevrilib. Avropa İttifaqı ölkələrinin müştərək siyasi fəaliyyətinin mexanizmlərinin formalaşması prosesi soyuq müharibə dövründə başlasa da, 1990-cı illərin əvvəllərində ikiqütblü ideoloji qarşıdurmanın başa çatması ilə özünü daha aktiv şəkildə göstərdi. İkiqütblü ideoloji bloklaşmanın başa çatmasından sonra Avropanın ABŞ-dan hərbi-siyasi asılılığının azalması və postbipolyar dövrdə beynəlxalq təhlükəsizlik, o cümlədən Avropa təhlükəsizliyi üçün yeni təhdidlərin meydana gəlməsi Avropa İttifaqını müstəqil xarici və təhlükəsizlik siyasəti yeritmək istiqamətində konkret qərarlar qəbul etmək məcburiyyəti qarşısında qoydu.

Qeyd etmək lazımdır ki, İkinci dünya müharibəsindən sonra Avropada ilk siyasi inteqrasiya prosesləri məhz təhlükəsizlik və müdafiə məsələləri ilə

bağlı idi. Belə ki, hələ 1947-1948-ci illərdə Qərbi Avropa Kollektiv Təhlükəsizlik sisteminin yaradılmasını nəzərdə tutan müqavilələr imzalanmışdı. Lakin 1950-ci ilin əvvəllərində bu layihələr uğursuzluğa düçar olmuşdu.

Qərbi Avropada inteqrasiyanın müasir konsepsiyasının mahiyyəti milli dövlətlər tərəfindən öz suverenliyinin bir hissəsini üstmilli inteqrasiya birliklərinə verməkdən ibarətdir və bu ideya Fransanın tanınmış ictimai xadimi Jan Monne tərəfindən irəli sürülmüşdü [2]. Fransanın xarici işlər naziri Şuman 9 may 1950-ci ildə Jan Monnenin ideyası əsasında Fransa və Almaniyada kömür və polad istehsalının nəzarətinin digər Avropa ölkələrinin də qoşulması üçün açıq olan birgə Ali orqana verilməsi haqqında təklif ilə çıxış etdi. Almaniya Federativ Respublikası (AFR), İtaliya, Belçika, Niderland və Lüksemburq hökumətləri bu təklifi dəstəklədilər və bu 6 dövlət tərəfindən 18 aprel 1951-ci ildə Parisdə Avropa Kömür və Polad Birliyinin (AKPB) təsis edilməsi haqqında müqavilə imzalandı. Bu müqavilənin imzalanması Qərbi Avropada inteqrasiya proseslərinin əsasını qoydu.

Avropa Kömür və Polad Birliyinə dair müqavilənin imzalanmasını Avropa inteqrasiya proseslərinin nailiyyəti kimi qəbul edən Fransa, İtaliya, Belçika, Niderland, Lüksemburq xarici fəaliyyət idarələrinin başçıları və AFR kansleri 27 may 1952-ci ildə Parisdə Avropa Müdafiə Birliyinin təsis edilməsi haqqında müqavilə imzaladılar. Müqavilənin 1-ci maddəsində deyilirdi ki, “Razılığa gələn Ali tərəflər bu müqavilə ilə ümumi təsisatlara, ümumi silahlı qüvvələrə və ümumi büdcəyə malik olan üstmilli xarakterli Avropa Müdafiə Birliyi təsis edirlər”. Eyni zamanda müqavilənin 2-ci və 120-ci maddələrində birliyin yalnız müdafiə məqsədləri daşıması və onun yalnız üzv dövlətlərin Avropa ərazilərində tətbiq edilməsi elan edilirdi [1]. Lakin 30 avqust 1954-cü ildə Fransa Milli Assambleyası bu müqaviləni ratifikasiya etməkdən imtina etdi və bununla da Avropa Müdafiə Birliyinə dair müqavilə uğursuzluqla nəticələndi.

Nəhayət, qeyd edilmiş 6 dövlət tərəfindən 25 mart 1957-ci ildə Romada Avropa İqtisadi Birliyinin (AİB) və Atom Enerjisi üzrə Avropa Birliyinin (Avroatom) təsis edilməsi haqqında 2 müqavilə imzalandı. Həmin müqavilələrdə Avropa inteqrasiya proseslərinin hüquqi və institusional əsasları müəyyən edildi. Bununla da Avropa Birliyinin əsası qoyuldu. Odur ki, Avropa ümumi xarici və təhlükəsizlik siyasətinin mənbələrini tədqiq edərkən, “Avropa Birliyi” anlayışının təbiətinin müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir. Şou J. Avropa Birliyini beynəlxalq hüquq qabiliyyətinə malik ayrı-ayrı müstəqil hüquqi vahidlərdən ibarət olan sərbəst siyasi qurum kimi xarakterizə edir. O, yazır: “Bu hüquqi vahidlər üç birlikdir ki, onların ikisi iqtisadiyyatın müəyyən sektoruna aiddir: 1951-ci il Paris müqaviləsi ilə təsis edilmiş Avropa Kömür və Polad Birliyi (AKPB) (25 iyul 1952-ci ildə qüvvəyə minib) və 1957-ci il Roma müqaviləsi ilə təsis edilmiş Atom Enerjisi üzrə Avropa Birliyi (Avroatom) (1 yanvar 1958-ci ildə qüvvəyə minib). İkinci 1957-ci il Roma müqaviləsinə əsasən həmçinin 1958-ci ildə Avropa İqtisadi Birliyi (AİB) yaradıldı. Məhz yuxarıda qeyd edilən üç Birlik “Avropa Birliyi” anlayışının vahid siyasi və hüquqi

çərçivəsini təşkil etdilər" [6, 5-7]. Digər tərəfdən, Hartli T.K. bildirir ki, Birliyin adətən vahid struktur kimi qəbul edilməsinə baxmayaraq, hüquqi nöqteyi nəzərdən üç birlik mövcuddur ki, bunlardan da fəaliyyəti universal xarakter daşıyan Avropa İqtisadi Birliyi daha böyük əhəmiyyət kəsb edir [3, 3-5].

Beləliklə, İkinci dünya müharibəsindən sonra Avropada inteqrasiya prosesləri iqtisadi sahəni əhatə edirdi. Həmin dövrdə Qərbi Avropa ölkələrinin təhlükəsizliyinin təmin edilməsində Transatlantik əməkdaşlığa üstünlük verildi və müdafiə məsələləri Avropa institutlarının yurisdiksiyasına aid edilmədi. Odur ki, Qərbi Avropa İttifaqı (QAİ) Avropada təhlükəsizlik və müdafiə sisteminin əsas təminatçısına çevrilə bilmədi, bu rol NATO-ya həvalə edildi.

Avropanın siyasi inteqrasiyası sahəsində dialoq 1960-cı illərin sonlarında yenidən başladı və 1970-ci ildə Avropa Siyasi Əməkdaşlığı (ASƏ) haqqında Müqavilə imzalandı. Müqaviləyə görə, Avropa Birliyinə üzv dövlətlər birgə Avropa Xarici Siyasəti formalaşdırmağa və həyata keçirməyə çalışmalı idi. Lakin Avropa siyasi əməkdaşlığı qarşılıqlı əsaslarla dövlətlərarası informasiya mübadiləsi və xarici işlər nazirləri arasında siyasi məsləhətləşmələr mexanizmi olsa da, üzv ölkələrin hökumətləri ilə üstmilli orqanları arasında səlahiyyətlərin bölünməsində fikir ayrılığının olması səbəbindən Birliyin müqavilə hüququna daxil edilmədi. Beləliklə, 1970-ci ildən başlayaraq, Avropa Birliyi dövlətlərarası əsaslarla Avropa Siyasi Əməkdaşlığı haqqında Müqavilə çərçivəsində vacib siyasi məsələlərə dair qarşılıqlı fəaliyyət göstərməyə başlasalar da, bu müqavilənin müddəaları məcburi xarakter daşımırdı və mahiyyət etibarı ilə xarici işlər nazirlərinin görüşlərinin koordinasiya edilməsinin hüquqi əsası kimi istifadə edilirdi.

Qərbi Avropa inteqrasiya proseslərində 1 iyul 1987-ci ildə Vahid Avropa Aktının (VAA) qüvvəyə minməsi xüsusi rol oynadı və dönüş mərhələsi kimi qiymətləndirilməlidir. İqtisadi inteqrasiya sahəsində Roma müqavilələrinin imzalanmasından 30 il keçdikdən sonra VAA ilk dəfə olaraq "dörd azadlıq" məkanını müəyyənləşdirdi. Əmtəənin, fiziki şəxslərin, xidmət və kapitalın heç bir daxili sərhəd olmadan sərbəst hərəkətini təmin edən vahid məkan "Vahid daxili bazar" adlandırıldı. Bundan başqa, Roma müqaviləsinə iqtisadi və sosial sahələr, elmi tədqiqatlar və texnoloji inkişaf, ətraf mühitin mühafizəsinə dair xüsusi bölmələr əlavə edildi, o cümlədən üzv dövlətlərin xarici siyasət sahəsində hökumətlərarası əməkdaşlığının hüquqi bazası yaradıldı.

Soyuq müharibənin başa çatması ilə siyasi vəziyyətin dəyişməsi Avropa Birliyi tərəfindən adekvat cavabların verilməsini tələb edirdi. Əgər əvvəllər soyuq müharibənin məqsədləri Avropa Birliyinə siyasi və hərbi sahələrdə müstəqil rol oynamağa imkan vermirdisə, SSRİ başda olmaqla sosialist düşərgəsinin dağılması siyasi sferada əməkdaşlıq üçün keyfiyyətcə yeni mühitin formalaşması ilə nəticələndi.

Belə bir şəraitdə Avropa inteqrasiya proseslərinin inkişafında, əsasən də Avropada xarici siyasət və təhlükəsizlik sahəsində yeni mərhələ başlandı. 7 fevral 1992-ci ildə Avropa Birliyinin on iki üzvü Maastrixt şəhərində Avropa

İttifaqının yaradılması haqqında Müqavilə imzaladı və həmin müqavilə 1 noyabr 1993-cü ildə qüvvəyə mindi [7]. Bu müqavilə 1950-ci illərin əvvəllərində əsası qoyulmuş Avropa inteqrasiya proseslərini keyfiyyətcə yeni səviyyəyə qaldırdı. Belə ki, "Maastrixt müqaviləsi" adlandırılan bu müqaviləyə əsasən, Birliyin adı dəyişdirilərək "Avropa İttifaqı" (Aİ) adına transformasiya edildi. Belə ki, müqavilənin 1-ci maddəsinə əsasən İttifaq "siyasət sferaları və bu Müqaviləyə əsasən əməkdaşlıq formaları ilə tamamlanmış Avropa birlikləri bazasında təsis edilir". Eyni zamanda müqavilədə Avropa inteqrasiya prosesləri tək iqtisadi və valyuta ittifaqının deyil, həm də siyasi ittifaqın yaradılmasını nəzərdə tuturdu. Bundan əlavə, Maastrixt müqaviləsində Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətinin (ÜXTS) hüquqi əsası qoyuldu. Müqavilədə Avropa siyasi əməkdaşlığı ÜXTS ilə əvəz edildi və ÜXTS ittifaq institutlarının fəaliyyəti ilə əlaqələndirildi. Nəhayət, yuxarıda qeyd edilənlərdən göründüyü kimi, ÜXTS Avropa Birliyinə üzv dövlətlər arasında 1950-ci illərdən iqtisadi əməkdaşlıq, o cümlədən iqtisadi məsələlərə dair qarşılıqlı əlaqələr ilə paralel olaraq siyasi əməkdaşlıq uğrunda davam edən müzakirələrin məntiqi nəticəsi kimi gündəmə gəldi.

Maastrixt müqaviləsi qəbul edildikdən sonra Aİ-nin əsas fəaliyyət sahələrini xarakterizə etmək məqsədilə "üç dayaq" anlayışından istifadə edildi. Birinci "dayaq" iqtisadi və maliyyə məsələləri ilə bağlıdır və Aİ-nin bu istiqamətində siyasətini əhatə edir. İkinci "dayaq" xarici siyasət, təhlükəsizlik və müdafiə məsələlərini, üçüncü "dayaq" isə daxili siyasət və ədliyyə sahəsində əməkdaşlıq məsələlərini özündə ehtiva edir. Maastrixt müqaviləsinə əsasən, Avropa İttifaqı xarici və təhlükəsizlik siyasəti sahəsində ümumi siyasəti və tədbirləri müəyyən edir və həyata keçirir. Müqaviləyə əsasən, Aİ beynəlxalq münasibətlərin bütün sferalarında əməkdaşlığın yüksək səviyyəsinə nail olmağa çalışır və aşağıdakı məqsədləri müəyyən edir:

a) öz dəyərlərinin, təməl maraqlarının, təhlükəsizliyinin, müstəqilliyi və bütövlüyünün müdafiəsi;

b) demokratiyanın, hüquqi dövlətin, insan hüquqlarının və beynəlxalq hüququn prinsiplərinin dəstəklənməsi və möhkəmləndirilməsi;

c) BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, o cümlədən Helsinki Yekun Aktının prinsiplərinə və Paris Xartiyasının məqsədlərinə uyğun olaraq sülhün qorunması, münaqişələrin qarşısının alınması və beynəlxalq təhlükəsizliyin möhkəmlənməsi;

d) kasıblığın kökünün kəsilməsini əsas məqsəd tutaraq, inkişaf etməkdə olan ölkələrin iqtisadi, sosial və ekoloji planda davamlı inkişafının dəstəklənməsi;

e) bütün dövlətlərin dünya iqtisadiyyatına inteqrasiyasının, o cümlədən beynəlxalq ticarətə maneələrin tədricən ləğv edilməsi hesabına, təşviq edilməsi;

f) davamlı inkişafı təmin etmək üçün ətraf mühitin qorunub saxlanılmasına və yaxşılaşdırılmasına və dünyanın təbii resurslarının etibarlı

idarə edilməsinə dair beynəlxalq tədbirlərin işlənib hazırlanması;

g) təbii amillər və ya insan fəaliyyəti nəticəsində meydana gəlmiş fəlakətlərlə üzləşən ölkələrin və regionların əhalisinə yardımların göstərilməsi;

h) gücləndirilmiş çoxtərəfli əməkdaşlığa və yaxşı qlobal idarəçiliyə əsaslanan beynəlxalq sistemin inkişafına nail olunması.

Beləliklə, iqtisadi inteqrasiya sahəsində əldə edilmiş nailiyyətlər, SSRİ başda olmaqla, sosialist düşərgəsinin dağılması və dünyada baş verən qlobal dəyişiklər 1990-cı illərin əvvəllərində Avropa İttifaqının müstəqil xarici və təhlükəsizlik siyasəti aparması üçün fundament yaratdı. Bununla bərabər, Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasəti formalaşdırmasını şərtləndirən bir sıra amilləri vurğulamaq lazımdır. Bu amillər sırasında, ilk növbədə, SSRİ süqut etdikdən, sosialist düşərgəsi dağıldıqdan və soyuq müharibə başa çatdıqdan sonra Avropa ölkələrinin dövlət müstəqilliyinə, ərazi bütövlüyünə və konstitusiya əsaslarına kommunist bloku tərəfindən olan hərbi müdaxilə təhlükəsinin yox olmasını, Avropanın ABŞ üçün əvvəlki strateji əhəmiyyətini qismən itirməsini və Qərbi Avropanın təhlükəsizlik sahəsində ABŞ-dan asılılığının əhəmiyyətli dərəcədə azalmasını qeyd etmək lazımdır. Digər tərəfdən, 1990-cı illərin əvvəllərinə Qərbi Avropa ölkələri iqtisadi inteqrasiya sahəsində ciddi nailiyyətlər əldə etmişdilər, onlar üçün siyasi və təhlükəsizlik sahələrdə əməkdaşlıq prioritet məqsədlərə çevrilmişdilər. Üçüncü tərəfdən, Avropa ölkələrinin xarici və təhlükəsizlik sahəsində ümumi siyasətinin formalaşdırması və daha da təkmilləşdirməsinə Balkan ölkələrində baş vermiş böhran ciddi təsir göstərdi. Avropa ölkələri Avropada baş verəcək böhranları təkbaşına tənzimləyə bilməyəcəklərini anladılar. Bu səbəbdən Avropa İttifaqı ölkələri ÜXTS çərçivəsində daha sıx əməkdaşlıq etməyə üstünlük verdilər.

Lakin Maastrixt müqaviləsində qeyd edilirdi ki, Avropa İttifaqı ölkələri ümumi strateji maraqları mövcud olduğu məsələlərə dair ümumi xarici həyata keçirirlər. Müqavilədə eyni zamanda ÜXTS və Aİ-nin əsas müdafiə strukturu olan Qərbi İqtisadi Birliyi çərçivəsində Ümumi Avropa təhlükəsizlik və müdafiə siyasətinin (ÜATMS) inkişaf etdirilməsinin mümkünlüyü vurğulanırdı.

XX əsrin sonlarında Avropa İttifaqında ÜXTS sahəsində bir sıra dəqiqləşdirilmələr aparılması zərurəti gündəmə gəldi. Bu dəqiqləşdirilmələr 2 oktyabr 1997-ci ildə imzalanmış və 1 may 1999-cu ildə qüvvəyə minmiş Amsterdam müqaviləsində öz əksini tapdı [8].

Amsterdam müqaviləsinin ümumi xarici və təhlükəsizlik siyasətinə həsr edilmiş 11 və 28-ci maddələrində Maastrixt müqaviləsindən fərqli olaraq, göstərilir ki, ÜXTS bütövlükdə İttifaqın səlahiyyətlərinə aid edilir və Aİ üzvləri ümumi xarici və təhlükəsizlik siyasətinə birgə dəstək verməlidirlər. Bundan əlavə, Amsterdam müqaviləsinin başlıca yeniliyi Aİ-nin ümumi müdafiə sferası ilə bağlı idi. Belə ki, bu müqavilə Avropa təhlükəsizlik və müdafiə siyasətinin formalaşdırılması perspektivlərini müəyyənləşdirirdi.

Qeyd etmək lazımdır ki, Amsterdam müqaviləsi ümumi xarici və təhlükəsizlik siyasəti sahəsində Maastrixt müqaviləsinin nailiyyətlərini özündə

birləşdirməklə bərabər, bu sahədə daha da irəli gedərək bir sıra yenilikləri ehtiva edirdi. Bu yenilikləri aşağıdakı kimi sistemləşdirmək olar:

Birincisi, Amsterdam müqaviləsi ilə Aİ ümumi müdafiə məsələsini özünün məsuliyyət sferasına aid etdi. Belə ki, müqavilədə göstərilirdi ki, "Avropa Şurası ümumi xarici və təhlükəsizlik siyasətinin, o cümlədən müdafiə sahəsinə aid məsələlərin prinsiplərini və əsas istiqamətlərini müəyyənləşdirir". Beləliklə, Amsterdam müqaviləsi Avropa İttifaqının müdafiə sferasında fəaliyyətinin hüquqi əsasını qoymuş oldu.

İkincisi, Amsterdam müqaviləsində, Maastrixt müqaviləsindən fərqli olaraq, ümumi müdafiə siyasətinin gələcək perspektivdə formalaşdırılmasını deyil, bu siyasətin ardıcıl olaraq həyata keçirilməsi nəzərdə tutulurdu. Beləliklə, Aİ-nin müdafiə sferasında praktiki fəaliyyətin həyata keçirilməsi üçün əsas oldu.

Üçüncüsü, Amsterdam müqaviləsi Qərbi Avropa İttifaqı tərəfindən əvvəllər formulə edilmiş "Petersburq tapşırıqları" kompleksini Avropa İttifaqının müdafiə siyasətinin məqsədlərinin rəsmi proqramı kimi qanuniləşdirdi və sonradan bu tapşırıqlar Ümumi Avropa təhlükəsizlik və müdafiə siyasətinə (ÜATMS) dair bütün sənədlərə daxil edildi.

Dördüncüsü, Amsterdam müqaviləsində Aİ-nin ümumi müdafiəsinin təmin edilməsi məqsədilə silahlanma və silahların istehsalı sahələrində səylərin birləşdirilməsi ilə bağlı xüsusi müddəa öz əksini tapıb. Bu müddəada deyilir ki, "Ümumi müdafiə siyasətinin ardıcıl şəkildə formalaşdırılması üzv dövlətlərin müvafiq hesab etdikləri şəkildə onlar arasında silahlanma sahəsində əməkdaşlıqla möhkəmləndiriləcək". Bu müddəa sonradan ATMS çərçivəsində silahların istehsalı ilə bağlı çoxtərəfli səylərin hüquqi əsasını təmin etdi.

Beşincisi, Amsterdam müqaviləsi Avropa Birlikləri və Avropa İttifaqı tarixində ilk dəfə olaraq, "Avropa Şurasının qərar qəbul edəcəyi təqdirdə Qərbi Avropa Birliyinin İttifaqa inteqrasiyası imkanını" nəzərdə tuturdu və Avropa Şurası sonradan məhz belə qərar qəbul etdi.

Altıncısı, Amsterdam müqaviləsinə təhlükəsizlik və müdafiə məsələləri ilə bağlı konseptual və struktur xarakterli yenilik əlavə edilmişdi. Konseptual xarakterli yenilik ondan ibarət idi ki, Avropa Şurası Maastrixt müqaviləsi əsasında birgə fəaliyyət və ümumi mövqe nəticəsində reallaşdırılacaq ümumi strategiyanın işlənib hazırlanması və qəbul edilməsinə məsul hesab edilirdi. Struktur xarakterli yenilik isə Nazirlər Şurasının Baş Katibi / Xarici və Təhlükəsizlik Siyasəti məsələləri üzrə Ali Nümayəndə postunun təsis edilməsindən ibarət oldu. Razılaşdırılmış ÜXTS həyata keçirilməsi Təhlükəsizlik Siyasəti məsələləri üzrə Ali Nümayəndəyə həvalə edilirdi və Havyer Solana 18 oktyabr 1999-cu ildə bu vəzifəyə təyin edildi.

Avropa Ümumi xarici və təhlükəsizlik siyasətinin inkişaf etdirilməsi istiqamətində növbəti addım 1 fevral 2003-cü ildə qüvvəyə minmiş Nits müqaviləsi oldu [9]. Müqavilənin V bölməsində 23-cü maddənin 2-ci paraqrafına və 24-cü maddənin 3-4-cü paraqraflarına əsasən ÜXTS çərçivəsində Şura

tərəfindən əksəriyyət səs çoxluğu əsasında həll ediləcək məsələlərin sayı xeyli artırıldı; 24-cü maddədə Şura tərəfindən üçüncü ölkələrlə və beynəlxalq təşkilatlarla müqavilələrin bağlanılması və tətbiq edilməsi qaydası dəqiqləşdirildi; 25-ci maddəyə əsasən əvvəllər xüsusi hökumətlərarası orqan kimi mövcud olmuş Siyasi Komitə əvəzinə daha geniş səlahiyyətlərə malik olan Siyasi və Təhlükəsizlik Məsələləri üzrə Komitə yaradıldı. Nits müqaviləsinin 11-ci maddəsinin 5-ci paraqrafında ÜXTS-nin məqsədləri bir daha müəyyənləşdirildi. Müqavilənin 12-ci maddəsində isə ÜXTS-nin metodlarına diqqət yetirilir. Bunlar, müqaviləyə əsasən, fəaliyyətin prinsip və ümumi istiqamətlərinin müəyyənləşdirilməsindən, ümumi strategiyanın, ümumi aksiyaların və ümumi mövqelərin işlənib hazırlanmasından ibarətdir.

Lakin Ümumi xarici və təhlükəsizlik siyasəti formalaşdırılmasına baxmayaraq, 2003-cü ildə İraq böhranının həlli ilə bağlı Aİ ölkələri arasında olan ziddiyyətlər göstərdi ki, Avropa İttifaqı xarici siyasət sferasında vahid cəbhədən çıxış etməyə hazır deyil və onun vahid xarici siyasət həyat keçirən aktora çevrilməsi barədə danışmaq hələ tezdir. Belə ki, Aİ vahid dövlət deyil və bu səbəbdən xarici siyasət sahəsində maraqların razılaşdırılmasında çətinliklərlə üzləşir. Hazırda Aİ-nin hər birinin öz maraqları olmaqla, 27 üzvü var və bu dövlətlərin maraqlarını həmişə eyni məxrəcə gətirmək mümkün olmur. Bununla bərabər, Avropa İttifaqı çərçivəsində ÜXTS sahəsində müstəqilliyin artırılması tərəfdarları (avropaçılar) ilə bu sahədə Aİ institutlarının möhkəmləndirilməsinin NATO çərçivəsində hərbi-siyasi əməkdaşlığın zəifləməsi ilə nəticələnəcəyindən narahat olanlar (atlantistlər) arasında ziddiyyətlər mövcuddur. Digər tərəfdən, ÜXTS sahəsində qərarların konsensus əsaslarla əksər üstünlüklə qəbul edilməsi göstərir ki, Aİ müəyyən mənada qərarların qəbul edilməsində konsensus prinsipinin girovuna çevrilmiş olur.

Maastrixt, Amsterdam və Nits müqavilələrinin imzalanması nəticəsində Aİ-nin səlahiyyətlərinin genişlənməsi, 2004-cü ildə Mərkəzi və Şərqi Avropa dövlətlərinin yeni üzv qəbul edilməsi və Aİ-nin dünyada siyasi çəkisinin dəyişməsi, öz növbəsində, Aİ-nin daxili strukturunda islahatlar aparılmasını və onun üzv dövlətlərlə səlahiyyətlərinin hüdudlarının daha aydın şəkildə müəyyən edilməsi zərurətini ortaya çıxardı. Qurumda islahatların aparılmasının istiqamətlərindən biri Avropa İttifaqı Konstitusiya layihəsinin işlənib hazırlanması oldu və Konstitusiya layihəsinin razılaşdırılmış son variantı 2004-cü ilin oktyabrında üzv dövlətlərin başçıları tərəfindən imzalandı.

Konstitusiya layihəsinə əsasən, Aİ-nin xarici işlər naziri postunun təsis edilməsi və xarici siyasət fəaliyyətinin yeni strukturunun yaradılması nəzərdə tutulurdu. Bundan əlavə, layihəyə əsasən, hərbi-siyasi sferada qarşılıqlı əlaqələr gücləndirilməli idi. Belə ki, Avropa İttifaqı ölkələrinin birgə müdafiəsi imkanları terror hücumları zamanı həmrəylik göstərilməsi və müdafiə sahəsində Aİ-nin üzv dövlətlərinin daimi əməkdaşlığının mexanizmlərinin yaradılması nəzərdə tutulurdu. Odur ki, Konstitusiya müqaviləsinin qüvvəyə minməsi Aİ-nin xarici siyasət fəaliyyətinin formalaşdırılması üçün xüsusi əhəmiyyət kəsb

edirdi. Lakin Fransa və Niderlandda Konstitusiyaya dair keçirilən referendumlarda səsvermələrin mənfi nəticələri bu layihənin qarşısını aldı və, müvafiq olaraq, Avropa İttifaqı meydana gəlmiş siyasi böhranın aradan qaldırılması yollarını axtarıb tapmaq məcburiyyəti ilə üzləşdi [5].

Aİ-nin 27 üzv dövlətlərinin rəhbərlərinin 13 dekabr 2007-ci ildə Lissabonda Avropa İttifaqı haqqında müqaviləni və Avropa Birliyini təsis edən müqaviləni dəyişən Müqavilə imzaladılar [10]. Elmi ədəbiyyatda "İslahatlar haqqında 2007-ci il Müqaviləsi" və ya "Lissabon Müqaviləsi" adlandırılan bu yeni sənəd Aİ-nin struktur və hüquqi qaydalarını, onun institutlar sistemini və məcburi qərarlar qəbul etmə şərtlərini ciddi şəkildə dəyişilməsini nəzərdə tutur. Lissabon Müqaviləsi Aİ ölkələri tərəfindən öz milli qanunvericiliklərinə uyğun şəkildə ratifikasiya edildikdən sonra 1 dekabr 2009-cu ildə qüvvəyə mindi.

Rusiyalı alim Entin L.M. qeyd edir ki, İttifaqın hüquq subyektliliyi bu Müqavilənin müddəalarından irəli gəlir. Belə ki, müqavilədə Avropa İttifaqının Avropa Birliyini əvəz etdiyi və onun varisi olduğu təsbit edilir. Tam aydındır ki, belə bir vəziyyətdə hüquqi şəxsin və beynəlxalq hüquq subyektliliyi statusunun varisliyi baş verir [4, 18]. Həqiqətən, Avropa İttifaqının hüquqi şəxs statusuna malik olması Avropa İttifaqı haqqında müqavilənin Lissabon müqaviləsi redaksiyasının 47-ci maddəsinə əsasən "İttifaq hüquqi şəxs statusuna malikdir".

Bununla bərabər, Lissabon müqaviləsi ümumi xarici siyasət və təhlükəsizlik siyasətində Aİ-nin rolunu daha dəqiq müəyyən edir və müdafiə məsələlərinə dair qərarın qəbul edilməsi üçün Aİ-yə üzv olan 27 ölkənin yekdilliklə razılığının zəruriliyini yenidən təsdiqləyir. Lissabon müqaviləsi Aİ-yə tərksilah əməliyyatlarında iştirak etməyə, hərbi yardım göstərməyə və hərbi müşavirlər göndərməyə, həm də münaqişələrdən sonra bərpa işlərinə yardım etməyə icazə verir. Müqavilə üzv ölkələr qarşısında təhlükəsizlik və müdafiə siyasətini həyata keçirmək üçün Avropa İttifaqını mülki və hərbi resurslarla təmin etmək öhdəliyi qoyur.

Ümumiliklə, Lissabon müqaviləsi "Avropa Birliyi" terminini rəsmi mətnlərdən çıxarır, lakin Birlik haqqında müqaviləni ləğv etmir, bu təsisat aktını transformasiya edir və müqavilə qüvvəyə mindikdən sonra Avropa Birliyinin təsis edilməsi haqqında müqavilə Avropa İttifaqının fəaliyyəti haqqında müqavilə adlanır. Odur ki, Avropa İttifaqı haqqında müqavilə və Avropa İttifaqının fəaliyyəti haqqında müqavilə iki təsisat aktı olmaqla Avropa inteqrasiya proseslərinin vahid hüquqi əsasını təşkil edir və bu müqavilələr eyni hüquqi qüvvəyə malikdirlər. Lissabon müqaviləsi Avropa İttifaqının beynəlxalq hüququn subyekti kimi vahid statusunu müəyyən etməklə "üç dayaq" sistemini ləğv etdi. Beləliklə, Lissabon müqaviləsi ilə əsas və praktiki universal inteqrasiya strukturu kimi yalnız Avropa İttifaqı çıxış edir və üzv dövlətlər ümumi məqsədlərə nail olunması naminə özlərinin müəyyən hüquq və səlahiyyətlərini bu inteqrasiya birliyinə verirlər.

Nəhayət, Avropa ümumi xarici və təhlükəsizlik siyasətinin formalaşması

və ilkin mərhələsi formal olaraq, Avropa birliklərinin təsis edilməsi ilə başlayır. Maastrixt müqaviləsi ilə Avropa İttifaqının təsis edilməsi Avropa ümumi xarici və təhlükəsizlik siyasəti sahəsində ikinci mərhələnin əsasını qoyuldu. Amsterdam və Nits müqavilələrinin qəbul edilməsi ÜXTS sahəsində üçüncü mərhələ kimi özünü büruzə verdi. Aİ-nin növbəti mərhələsi Lissabon müqaviləsinin qüvvəyə minməsi ilə başlayır. Qeyd edilənlər kontekstində Avropa İttifaqının beynəlxalq münasibətlərdə əhəmiyyətli rol oynaması və iqtisadi yardımlardan Avropa dəyərlərinin təşviqinədək geniş imkanlara malik olması xüsusi vurğulanmalıdır. Belə ki, Avropa İttifaqı digər dövlətlər üçün inteqrasiya birliyi nümunəsi kimi çıxış edir və özünün hərbi imkanlarının məhdud olması səbəbindən daha "yumşaq" təsir mexanizmlərindən istifadə edir. Aİ-nin böyük iqtisadi imkanları və xarici siyasət sahəsində artan potensialı onun beynəlxalq münasibətlərin aparıcı subyektlərindən birinə çevrilməsi üçün ciddi əsas yaradır. Bu səbəbdən öz inkişafının ilkin mərhələlərində regional oyunçu olan Aİ hazırda qlobal liderliyə can atır, nəinki Avropa ərazisində, hətta onun hüdudlarından kənarda münaqişələrin tənzimlənməsində iştirak edir.

**ƏDƏBİYYAT**


1. Договор, учреждающий Европейское оборонительное сообщество // Франция и «европейская армия». Сб. материалов. Пер. с франц. М.: Иностр. лит., 1954, с. 205-262.
2. Монне Ж. Реальность и политика. Мемуары. М.: Москов. школа полит. исследований, 2001, 664 с.
3. Хартли Т.К. Основы права Европейского Сообщества. Закон и право. М.: ЮНИТИ, 1998, 703 с.
4. Энтин Л.М. Право Европейского Союза. Новый этап эволюции: 2009-2017 годы. М.: Аксиом, 2009, 304 с.
5. McManamara S. The EU Constitution: Will Europe force a Way Forward? // www.heritage.org/Research/Europe/bg1991.cfm
6. Shaw J. Law of the European Union. London, Macmillan Press, 1996, 448 p.
7. The Maastricht Treaty provisions amending the Treaty establishing the European Economic Community with a view to establishing the European Community, 7 February 1992 // www.eurotreaties.com/maastrichtec.pdf
8. The Treaty of Amsterdam amending the Treaty on European Union, the Treaties establishing the European Communities and related acts, 2 October 1997 // www.eur-lex.europa.eu/en/treaties/dat/11997D/htm/11997D.html
9. The Treaty of Nice amending the Treaty on European Union, the Treaties establishing the European Communities and certain related acts, 10 March 2001 // www.eur-lex.europa.eu/en/treaties/dat/12001C/pdf/12001C_EN.pdf
10. Treaty of Lisbon amending the Treaty on European Union and the Treaty establishing the European Community, signed at Lisbon, C306, 13 December 2007 // Official Journal of the European Union, 2007, Vol. 50, 271 p.

## ФОРМИРОВАНИЕ И ЭТАПЫ РАЗВИТИЯ ЕВРОПЕЙСКОЙ ОБЩЕЙ ВНЕШНЕЙ ПОЛИТИКИ И ПОЛИТИКИ БЕЗОПАСНОСТИ

**Т.Х.ВЕЛИЕВА**

### РЕЗЮМЕ

Исследуется формирование и основные этапы развития Общей внешней политики и политики безопасности (ОВПБ) Европейского Союза. Утверждается, что формирование ОВПБ формально начинается с учреждением Европейских сообществ. Заключение Маастрихтского договора положило основу качественно нового этапа развития ОВПБ, которая свое дальнейшее развитие получила в Амстердамском и Ниццком договорах, а вступление в силу Лиссабонского договора ознаменовало начала очередного этапа ОВПБ.

**Ключевые слова:** Европейский Союз, общая внешняя политика и политика безопасности, Маастрихтский Договор, Амстердамский Договор, Ниццкий Договор, Лиссабонский Договор, Единый Европейский Акт, единый внутренний рынок, интеграция

## FORMATION AND STAGES OF DEVELOPMENT OF THE COMMON EUROPEAN FOREIGN AND SECURITY POLICY

**T.Kh.VALIYEVA**

### SUMMARY

The article studies formation and the main stages of development of the common foreign and security policy (SFSP) of the European Union. It is affirmed, that formation of SFSP formally begins with establishment of the European communities. The conclusion of the Maastricht Treaty has put a basis of a qualitatively new stage of development of SFSP, which has received the further development in the treaties of Amsterdam and Nice, and entry into force of the Treaty of Lisbon has marked the beginning of the next stage of SFSP.

**Key words:** European Union, common European foreign and security policy, Maastricht Treaty, Amsterdam Treaty, Treaty of Nice, Single European Act, Treaty of Lisbon, single internal market, integration